Bütün xor dərsləri prosesinin təşkili və qurulması didaktik baxımdan vacibdir. Mahnı yaxud xor əsəri üzərində iş bütün pedaqoji prosesin əsas məqamıdır. Xor kollektivinin ifaçılıq uğurları pedaqoq-xormeysterin mahnı üzərində işləməyi necə öyrətməsindən çox asılıdır. Təcrübə göstərir ki, rəhbər mahnı repertuarının metodiki baxımdan düzgün və səmərəli öyrənilməsinə böyük əhəmiyyət verməlidir. Pedaqoq-xormeyster musiqi savadının mahnı ifası timsalında mənimsənilməsinin qarşılıqlı əlaqəsini bilməli və həyata keçirməlidir. Məktəblilərin vokal repertuar materialı üzərində tədricən elementar musiqi savadını: səs anlayışını, onun yüksəkliyini, tembrini, uzunluğunu, musiqi ritmini, hesabı, metri, not yazısı qaydalarını, taktı, alterasiya işarələrini, ladı və onun əsas pillələrini, tonallığı və s. öyrənməsi vacibdir.[2] Pedaqoq-xormeyster məktəbliləri böyük həcmdə musiqi-nəzəri biliklərlə mümkün qədər tez tanış etməyə tələsməməli və cəhd etməməlidir. Bu halda metodiki baxımdan onların ötürülməsinin miqdarı və vaxtı deyil, prosesin özü əsasdır. Bu proses çox ehtiyatlı şəkildə həyata keçirilir ki, təqdim olunan musiqi-nəzəri biliklərin həcmi heç bir halda xor oxumanın yaradıcı baxımdan əyləncəli məqsədyönlülüyündən və məzmunluluğundan üstün olmasın və onu boğmasın. Didaktik nöqteyi-nəzərdən vacibdir ki, uşaqlar üçün konkret musiqi bilikləri ifa prosesində konkret praktiki nümunə ilə sıx əlaqəli olsun, onlar mücərrəd və abstrakt xarakterə malik olmasın, biliklər onlar üçün "musiqi ixtiraları" olsun, onlar əsas məqsəddən – xorda oxumaq istəyi və bacarığından törəsin. Analoji didaktik yanaşma xüsusi vokal çalışmaların öyrənilməsində də vacibdir.

Vokal repertuarın öyrənilməsi prosesində başa düşülən formada, tədricən və ardıcıllıqla, uşaqların diqqətini həddindən artıq yükləməmək şərtilə əsərin strukturu, janrı və üslubu (fraza, cümlə, dövr, forma), onun fakturası (melodiya, harmoniya, polifoniya və s.) təhlil olunur, temp, dinamika, melizmlər, kulminasiya, müxtəlif abreviatura işarələri (repriza, volta və s.) və digər musiqi terminləri izah edilir. Bütün bu musiqi bilikləri öyrənilən əsərin timsalında oxu prosesinə tam uyğun şəkildə verilməlidir.

Beləliklə, xor fəaliyyəti prosesində tədricən və ardıcıl şəkildə musiqi savadının və təhsilliliyinin təməli qoyulur:

– musiqi sənəti haqqında elementar (tarixi, nəzəri və praktiki) musiqi biliklərinin əldə olunması;

– vokal-ifa bacarıqlarının və vərdişlərinin formalaşdırılması.

---

[2]Tədqiq olunan vokal repertuar müəllif tərəfindən 2009, 2010, 2015-ci illərdə dərc edilən və istifadə olunmuş ədəbiyyat siyahısında verilən dərs vəsaitlərində ümumiləşdirilib.

Xor oxumanın musiqi-nəzəri və ifaçılıq (müğənnilik) biliklərində, bacarıq və vərdişlərində ümumiləşdirilmiş bütün təhsil vəzifələri pedaqoq-xormeysterin fəaliyyətində əsas məqsəd kimi bütövlükdə musiqiyə sevgiyə və musiqinin dərk edilməsinə yönəldilməlidir.

Uşaqlar üçün oxuma prosesi, dərk edilmiş musiqi məzmununun ifadə vasitəsi kimi, faktiki olaraq musiqiyə qoyulan ideyalar və hisslər aləminə daxil olmaq və öz dinləyicilərini ona cəlb etmək imkanıdır. Beləliklə, pedaqoq-xormeysterin fəaliyyətində təhsil funksiyasını ümumiləşdirərkən, lazımi biliklərin verilən həcminin tam və dərindən dərkini formalaşdırmaq lazımdır. Bütövlükdə, təhsil vəzifəsi bilavasitə vokal-xor repertuarının öyrənilməsi-ifası prosesində həyata keçirilir və nəzəri və praktiki (ifaçı) biliklərin, bacarıq və vərdişlərin optimal şəkildə qarşılıqlı əlaqəsi onun səmərəliliyini və müvəffəqiyyətlə yerinə yetirilməsini təmin edir.

**1.3. Məktəblilərin xor fəaliyyəti prosesində inkişaf vəzifələrinin rolu** nəzərdən keçirilir. Uşaqların xor ifaçılıq mədəniyyətinin inkişafı intellektual, emosional, texniki və iradi inkişafının zəruri və vahid birləşməsini nəzərdə tutur. Məhz bu keyfiyyətlər xor kollektivinin yaradıcı fərdiliyini formalaşdırır, onlardan birinin olmaması isə xor ifasına təsir göstərərək, onu natamam edir.

Təcrübəli pedaqoqlar və metodistlər xor kollektivləri ilə işləyərkən onun intellektual inkişafının əhəmiyyətinə xüsusi diqqət yetirir. Uşaq xor kollektivlərinin musiqi-intellektual inkişafı üçün ifaçı repertuarının uşaqlar arasında populyar olan mahnılarla məhdudlaşdırılmamalı, məzmununa görə müxtəlif və zəngin olmalıdır ki, uşaqlar çoxlu mütaliə etsin, yanaşı incəsənət növlərindən anlayışları olsun, onlarla ünsiyyət zamanı ümumi mədəniyyətlərinin inkişafı üzə çıxsın. Uşaqların ümumi və musiqi mədəniyyəti nə qədər yüksəkdirsə, onların artistik fərdiliyi və müvafiq olaraq, ifaçılıq fəaliyyətinin uğurluluğu da o qədər parlaq və zəngindir.

Xor kollektivinin peşəkar təşəkkülü prosesi bir sıra təsir və amillərdən yaranır. O, mahnının musiqisinin və mətninin öyrənilməsi ilə məhdudlaşmır, pedaqoq-xormeyster üçün uşaqlara hərtərəfli təhsil vermək çox vacibdir. Belə ki, onlar ətraf aləmdən bütün lazım olan şeyləri mənimsəməli, çoxlu mütaliə etməli, musiqi dinləməli, teatr və muzeylərdə olmalı, maraqlı insanlarla ünsiyyətdə olmalıdır. Xorun özünü öz vasitəsiz, ilhamlanmış və bədii interpretasiyasının yaradıcısı kimi təqdim edə bilməsi, onun artistik təsirinin zənginliyinin və qüvvəsinin hiss olunması üçün təkcə “yaxşı oxumaq” deyil, həm də xor ifaçılığının fərdi üslubunu təkmilləşdirmək vacibdir.

Musiqi təfəkkürü və intellektinin effektiv inkişafı üçün mahnı repertuarının öyrənilməsi prosesində xor kollektivinin işi mexaniki şəkildə deyil, ruhlandırılmış düşüncəlilik, musiqi şüurunun və diqqətinin aktivliyi, təşəbbüs və fantaziyanın yaradıcı atmosferində yerinə yetirilməlidir. Musiqi əsəri üzərində məhz musiqi təfəkkürünü bilavasitə inkişaf etdirən düşünülmüş iş kollektivə xor sənəti səviyyəsinə qədər yüksəlməyə kömək edir.

Məhz geniş həcmdə musiqi materialının, biliklərin, hadisələrin öyrənilməsi, onları istifadə etmək bacarığı musiqi təfəkkürünün inkişaf etməsinin göstəricisidir. İfa edilən musiqinin intonasiya əlaqəsini eşitmək və məntiqi qarşılıqlı əlaqəsini bilmək xor oxumanın iştirakçılarının musiqi-təfəkkür fəaliyyətinin aktivliyindən xəbər verir.

Təəssüf ki, müasir musiqi-pedaqoji fəaliyyətdə xor kollektivlərində iş yalnız dar peşəkar vərdişlərin inkişaf etdirilməsi və xorun nümunəvi çıxışlara hazırlanması ilə məhdudlaşır. Belə şəraitdə xor dərslərinin musiqi-intellektual məzmunu süni olaraq yoxsullaşır, pedaqoqun kollektivə təsiri isə sırf praktiki müğənnilik vərdişlərinin nümayişi ilə məhdudlaşır.

Xor kollektivinin iştirakçılarının intensiv inkişafı üçün bir neçə didaktik baxımdan effektiv metodu təklif etmək olar:

– sayına görə böyük, janrına və üslubuna görə isə müxtəlif xor repertuarının öyrənilməsi;

– ifa repertuarının öyrənilməsi prosesində musiqi-nəzəri və musiqi-tarixi biliklərin aktiv surətdə tətbiq edilməsi, oxuyanın şüurunun bədii təsəvvürlər, ifa olunan musiqi materialı ilə bağlı anlayışlarla zənginləşdirilməsi;

– xor fəaliyyəti prosesində onun iştirakçılarının sərbəstliyinin, yaradıcılıq təşəbbüsünün maksimum dolğun şəkildə istifadə edilməsi;

– musiqi-ifaçılıq fəaliyyətinin mahnının vərəqdən oxunması, vokal əsərlərin eskiz öyrənilməsi kimi formalarından aktiv surətdə istifadə edilməsi.

Bu metodiki tövsiyələr pedaqoq-xormeysterə öz şagirdlərinin hərtərəfli və ahəngdar inkişafını effektiv surətdə həyata keçirməyə imkan verəcək.

Məktəbliləri bu və ya digər musiqi-nəzəri və ya musiqi-tarixi məlumatla tanış edərkən, onu çətinlik dərəcəsinə və məzmunluluğuna, həmçinin əhəmiyyətliliyinə görə ayırmaq lazımdır. Onların diqqətini həddindən artıq çox göstəriş və məlumatla yükləməyin, çünki bu zaman başlıca məqamı, yəni mahnının bədii canlandırılması prosesini qaçıra bilərsiniz. Xormeysterin bir dərs saatı ərzində öyrənilən əsəri öz kollektivi ilə ətraflı şəkildə nəzərdən keçirmək, maksimum çox məlumat, izah və şərh vermək cəhdi

hər zaman baş tutmur, buna görə də şagirdi inkişaf etdirən tədris materialı sistemləşdirilməli, əsas və başlıca məqama yönəldilməlidir. Məktəblinin musiqi inkişafının səviyyəsi nə qədər aşağıdırsa, o, bir o qədər çox musiqi biliyi və məlumatını mənimsəməli və xor kollektivin rəhbəri də bu biliklərin verilməsi prosesini o qədər məntiqi və sistemli şəkildə planlaşdırmalıdır. Xor kollektivinin iştirakçılarının aldığı musiqi-nəzəri məlumatının çətinlik dərəcəsi, təbii ki, onların fərdi xüsusiyyətlərinə, yaş, fiziki və psixi göstəricilərinə uyğun dəyişdirilməlidir. Lakin pedaqoq-xormeyster unutmamalıdır ki, yalnız məktəblinin təfəkkürünə daim və hiss olunmadan artan yükləmə onun musiqi-intellektual inkişafını maksimal surətdə intensivləşdirə bilər. Başqa sözlə, verilən musiqi biliklərinin geniş həcmi təkcə oxuyanın inkişaf səviyyəsinə uyğun olmamalı, həm də onların çətinlik və genişlik dərəcəsinə görə artırılmasını nəzərdə tutmalıdır.

**1.4. Uşaq xor kollektivləri ilə işdə tərbiyə, təhsil və inkişaf məsələlərinin qarşılıqlı əlaqəsinin didaktik əsaslarının nəzəri əsaslandırılması** verilir. Geniş musiqi-pedaqoji praktikası xormeysterin öz işində mühüm metodiki prinsipi – bütün tərbiyə, təhsil və inkişaf vəzifələrinin qarşılıqlı əlaqəsini təqib etməli olduğunu təsdiq edir. Onların praktiki cəhətdən uğurla həyata keçirilməsi üçün oxuyanların musiqi tərbiyəsi səviyyəsinin onların əldə etdiyi musiqi bilikləri, vokal-xor bacarıqları və vərdişləri ilə bərabərləşdirilməsi və uyğunlaşdırılması prinsipini həyata keçirməyi bacarmaq çox vacibdir ki, məktəblilərin xor fəaliyyəti zamanı hər üç kateqoriya (musiqi tərbiyəsi, təhsili və inkişafı) bir-birinə uyğun olsun, məqsədyönlü və bərabər şəkildə formalaşsın.

Mahnının öyrənilməsi prosesində xormeyster məktəblilərdə musiqi sənətinə marağı və sevgini, onunla ünsiyyətdə olmaq tələbatını tərbiyə edir, onların musiqi dünya görüşünü, musiqinin ətraf aləm haqqında nə danışması, hansı hissləri, fikirləri, əhval-ruhiyyələri və ideyaları ehtiva və ifadə etməsi barədə təsəvvürləri formalaşdırır. Eyni zamanda oxuyanların musiqi-yaradıcı qabiliyyətlərini (eşitmə qabiliyyətini, ritmi, yaddaşı, təxəyyülü, təfəkkürü, intuisiyanı) inkişaf etdirir, kompleks vokal-ifaçılıq bacarıq və vərdişlərini təkmilləşdirir. Musiqi təhsili baxımından xormeyster məktəbliləri elementar musiqi savadının əsasları ilə tanış edir. Pedaqoq tədricən və məqsədyönlü şəkildə məktəblilərdə musiqi sahəsində gələcək özünütərbiyə, özünütəhsil və özünüinkişaf üçün təməl yaradır.

Pedaqoji rəhbərliyin və təsirin əhəmiyyətinə və roluna, xor oxuma zamanı məktəblilərin mənimsədiyi biliklərin həcminin və hərtərəfliliyinin vacibliyinə baxmayaraq, ayrı-ayrılıqda götürülmüş bu məqamlar məktəbli-

lərin musiqi tərbiyəsi, təhsili və inkişafının didaktik qarşılıqlı əlaqəsinin müvəffəqiyyətliliyi üçün hələ kifayət etmir. Bu, yalnız pedaqoq-xormeyster məktəblilərə özünütərbiyə, özünütəhsil və özünüinkişaf vərdiş və bacarıqlarını, lazım olan bilik və bacarıqları fəal və müstəqil şəkildə tapmaq və mənimsəmək, musiqi sənətinin bütün müxtəlifliyi ilə sərbəst şəkildə tanış olmaq qabiliyyətini tədricən və məqsədyönlü şəkildə aşıladığı təqdirdə həqiqətən fəal və intensivdir. Başqa sözlə, bütün tərbiyə, təhsil və inkişaf məsələlərinin didaktik qarşılıqlı əlaqəsinin həyata keçirilməsinin müvəffəqiyyətliliyi və aktivliyi müəyyən mənada xor kollektivinin bütün iştirakçılarının fəallığı, sərbəstliyi, mütəşəkkilliyi və şüurluluğundan asılıdır.

Məktəblilərin yaradıcı müstəqilliyi, təşəbbüsü, iradəsi və hətta həvəsi musiqi tərbiyəsi, təhsili və inkişafının didaktik qarşılıqlı əlaqəsi prosesini aktiv surətdə intensivləşdirir, belə ki, şəxsi səylər nəticəsində əldə olunan bilik, bacarıq və vərdişlər nəinki daha möhkəmdir, həm də musiqi təfəkkürünün formalaşmasını stimullaşdırır.

Pedaqoq-xormeysterin başlıca məqsədi məktəbliləri tərbiyə edərkən, onlara təhsil verərkən və inkişaf etdirərkən lazımi musiqi mədəniyyətini aşılamaqdan ibarətdir ki, gələcəkdə əldə etdikləri təcrübəyə söykənərək, müstəqil şəkildə işləyə və yarada bilsinlər, xor dərsləri onların ümumi musiqi mədəniyyətini formalaşdırmaqla yanaşı, gələcəkdə ətraf aləmin müstəqil bədii-estetik qavranılması, mənimsənilməsi və dərk edilməsi üçün təmələ çevrilsin.

Uşaq xor kollektivinin ənənəvi hazırlıq sistemi diqqəti əsasən oxumaya yönəldərək, onun iştirakçılarının musiqi tərbiyəsi və inkişafı məsələlərini məhdudlaşdırır, xorun təkrarolunmaz, yaradıcı individuallığı ilə fərqlənən üsluba, incə zövqə, artistizmə malik, xor ifaçılıq sənətində dərin fikirli, parlaq, təəssürat bağışlayan, yenilikçi, cəsarətli və fəal münasibətini ifadə edə bilən kollektivə çevrilmək qabiliyyətindən məhrum edir.

Uşaq xorunda bütün musiqi tədrisi prosesinin effektivliyi onu müşayiət edən və bir-biri ilə sıx qarşılıqlı əlaqədə olan və bir-birini şərtləndirən musiqi tərbiyəsi, təhsili və inkişafı proseslərindən asılıdır və nəticə etibarilə, bu əlaqələr pozulduqda ciddi çətinliklər yaranır və onlar həm musiqi tərbiyəsinə, həm də musiqi təhsilinə və inkişafına arzu olunmayan təsir göstərir.

Şəxsi pedaqoji fəaliyyət ərzində dərin nəzəri təhlil və ümumiləşdirmə, həmçinin uzunmüddətli praktiki aprobasiya əsasında uşaq xor kollektivinin ifaçılıq mədəniyyətinin, səhnə artistizminin və peşəkar ustalığının artmasına effektiv imkan yaradan bütün tərbiyə, təhsil və inkişaf vəzifələrinin didaktik qarşılıqlı əlaqəsi sistemi işlənib hazırlanmışdır. Müəllifin işləyib hazırladığı sistem pedaqoq-xormeysterə onun qarşısında qoyulan vəzifələrin

vacibliyini dərk etməyə və qiymətləndirməyə, xor kollektivinə isə vokal ifaçılıq ustalığının yüksək səviyyəsinə çatmağa kömək edir.

**Tərbiyə:**

– uşaqlarda xor fəaliyyətinə maraq və sevginin inkişaf etdirilməsi;

– musiqi sənətinə emosional həssaslığın tərbiyə edilməsi;

– bədii zövqün formalaşdırılması;

– estetik, mənəvi və etik dəyərlərin formalaşdırılması.

**Təhsil:**

– vokal səsin inkişaf etdirilməsi: gözəl, təbii səslənmənin formalaşdırılması, vokal diapazonunun genişləndirilməsi;

– mənalı, savadlı və bədii ifaya nail olmaq üçün əsas kimi vokal-xor biliklərinin, bacarıq və vərdişlərinin aşılanması

– elementar musiqi savadının əsaslarının öyrənilməsi;

– bütün musiqi qabiliyyətləri kompleksinin: ritm, eşitmə qabiliyyəti, yaddaş, musiqi təfəkkürünün inkişaf etdirilməsi;

– üslubuna, janrına və formasına görə müxtəlif musiqi repertuarının mənimsənilməsi.

**İnkişaf:**

– vokal əsər üzərində düşünülmüş iş prosesində musiqi təfəkkürünün inkişaf etdirilməsi;

– musiqi ifadəliliyinin əsas vasitələrinin: metroritm, melodiya, harmoniya, lad, forma, tembr-dinamika və s. öyrənilməsi;

– ən sadə musiqi intonasiyalarından tutmuş ən mürəkkəb musiqi formalarına qədər müxtəlif səs strukturlarının məntiqinin dərk edilməsi;

– musiqi materialından istifadə etmək, oxşarlığı və fərqi tapmaq, təhlil və sintez etmək, qarşılıqlı əlaqələri müəyyən etmək və oxuma prosesində musiqi biliklərini tətbiq etmək bacarığı.

Xor oxuma prosesində bu mühüm didaktik göstərişlərin mahiyyətini və məzmunun həyata keçirərkən, pedaqoq-xormeyster bütövlükdə məktəblilərin hərtərəfli musiqi mədəniyyətinin formalaşdırılması məsələsini həll edir.

**Dissertasiyanın II fəsli "Xor oxumanın tədrisi prosesində məktəblilərin tərbiyəsi, təhsili və inkişafının didaktik qarşılıqlı əlaqəsi problemlərinin praktiki işlənib hazırlanması"** adlanır və üç hissədən ibarətdir. **2.1. Məktəblilərin xor fəaliyyəti prosesində tərbiyə, təhsil və inkişaf vəzifələrinin didaktik qarşılıqlı əlaqəsinin həyata keçirilməsi üzrə təcrübi-eksperimental işin aparılmasının məqsədi, vəzifələri və**

**dinamikası** nəzərdən keçirilir və təcrübi-eksperimental işin 1-ci ilkin mərhələsi: 2002-2005-ci illər – təsdiqedici eksperiment təsvir olunur.

Təcrübi-eksperimental iş on il ərzində həyata keçirilib: 2002-ci ildən başlayaraq 2013-cü ilə qədər. İşə cəmi 200-dən artıq sınanan – müxtəlif xor kollektivlərinə gedən ibtidai, orta və yuxarı sinif şagirdləri cəlb edilmişdir. Təcrübi-eksperimental işin bazası Azərbaycan Dövlət Uşaq Filarmoniyası, 6, 16, 35 saylı uşaq musiqi məktəbləri və H.Əliyev adına Müasir Təhsil Kompleksi olmuşdur.

Təcrübi-eksperimental iş prosesi üç mərhələdə aparılmışdır: ilkin (müəyyən edici mərhələ), əsas (formalaşdırıcı mərhələ) və yekun (korrelyasiya edici mərhələ). Təcrübi-eksperimental iş məktəblilərin musiqi tərbiyəsi, təhsili və inkişafının didaktik qarşılıqlı əlaqəsinə nail olunmasına yönəldilmişdir. Təcrübi-eksperimental işin **məqsədi** – hazırkı tədqiqatda irəli sürülən nəzəri və metodoloji müddəaların doğruluğuq dərəcəsinin və ölçüsünün üzə çıxarılması, habelə xor fəaliyyəti prosesində tərbiyə, təhsil və inkişaf vəzifələrinin didaktik qarşılıqlı əlaqəsinin məqsədyönlülüyünün və səmərəliliyinin müəyyən edilməsi – bu müddəa ilə müəyyən etmişdir.

Eksperimental iş üç mərhələdə aparılmış və bu mərhələlərdən hər biri müxtəlif xor kollektivlərində didaktik qarşılıqlı əlaqə prosesini əhatə etmişdir:

I ilkin mərhələ təsdiqedici eksperiment 2002-2005-ci illər: Azərbaycan Dövlət Uşaq Filarmoniyası, 6, 16, 35 saylı uşaq musiqi məktəbləri.

II əsas mərhələ - formalaşdırıcı eksperiment 2005-2008-ci illər: Azərbaycan Dövlət Uşaq Filarmoniyası, 6, 16, 35 saylı uşaq musiqi məktəbləri.

III yekun mərhələ - korrelyasiya edici mərhələ 2008-2012-ci illər: H.Əliyev adına Müasir Təhsil Kompleksi.

Təsdiqedici tədqiqat 2002-2005-ci tədris illəri ərzində Azərbaycan Dövlət Uşaq Filarmoniyasının, 6, 16, 35 saylı uşaq musiqi məktəblərinin bazasında aparılmışdır.

Xüsusi 1 saylı anket tərtib edilmiş və onun sualları məktəblilərin musiqi tərbiyəsi, təhsili və inkişafının ümumi səviyyəsini müəyyən etməyə kömək etmişdir.

## ANKET №1

## I

1. Hansı musiqini (xalq, klassik, müasir) dinləməyə üstünlük verirsən?
2. Hansı musiqi alətlərini tanıyırsan?
3. Hansı mahnıları bilirsən və ifa edə bilərsən?

4. Musiqi insanın həyata, təhsilə, insanlara münasibətini dəyişə bilərmi?

5. Musiqi insanın əhval-ruhiyyəsinə müsbət təsir göstərə bilərmi?

6. Əsərin musiqi obrazını xarakterizə etmək, onun xarakterini, əhval-ruhiyyəsini (qəmli, ən, məlahətli, ciddi və s.) müəyyən etmək.

7. Azərbaycan bəstəkarlarının hansı əsərlərini dinləmisən?

8. Hansı rus və xarici bəstəkarları tanıyırsan?

9. Müxtəlif musiqi janrlarında – opera, balet, simfonik və kamera-instrumental musiqi – tanıdığın bir neçə musiqi əsərinin adını söylə.

10. Mahnı, rəqs və marş musiqisi fərqlənirmi? Fərqlənirsə, nə ilə fərqlənir?

## II

1. İfa olunan musiqi əsərinin janrını müəyyən etmək.

2. İfa olunan melodiyanın xarakterini müəyyən etmək.

3. Hansı tonallıqda (major və ya minor) səslənir?

4. İfa olunan əsər: bəstəkar, üslub, musiqi fakturası və forması haqqında nə bilirsən.

5. Musiqi ifadəliliyinin hansı əsas vasitələrinin adını çəkə bilərsən?

6. Dinlənilən musiqi parçalarının üslubunu (xalq, klassik, müasir) müəyyən etmək.

7. Dinlənilən musiqi parçalarında iki və üç hissəli ritmlər arasındakı fərqi müəyyən etmək.

8. Melodiya, harmoniya və polifoniya arasındakı fərqi izah edin.

9. Səslənməsinə görə musiqi alətlərinin adını müəyyən etmək. Musiqi tembrini izah və xarakterizə etmək.

10. Tempin nə olduğunu izah etmək, onun növlərini sadalamaq və müxtəlif templərdə ifa olunan musiqi nümunələrinin adını çəkmək

## III

1. Melodik parçanı dinləyib, onu vokal improvizasiyanın köməyi ilə tamamlamaq və Tonikaya çatdırmaq.

2. Dinlənilən musiqi əsərinin formasını müəyyən etmək.

3. Dinlənilən əsərdə motivi, təklifi, dövrü tapmaq və onların strukturunun və rolunun qısa izahını vermək.

4. Dinlənilən əsərdə modulyasiya keçidlərini müəyyən etmək.

5. Dinlənilən əsərdə sekvensiyaların ardıcıllığını tapmaq və onların rolunu izah etmək.

6. İfa olunan musiqi əsərinin ritmini müəyyən etmək.

7. Konsonasiya və dissonasiya edən, melodik və harmonik intervallar arasındakı fərqi müəyyən edin.

8. Harmonik ahəngdə səslərin sayını müəyyən etmək. Sabit və qeyri-sabit akkord nümunəsini göstərmək, onun mahiyyətini və strukturunu qısaca izah etmək.

9. İfa olunan melodiyaya yanlış və düzgün müşayiət arasındakı fərqi müəyyən etmək. Müşayiətin rolunu izah etmək.

10. İfa olunan əsərdə dinamik çalarları müstəqil şəkildə seçmək və qeyd etmək.

Tərtib oluna anketin məzmunundan göründüyü kimi, o, üç əsas blokdan və onların hər biri on sualdan ibarətdir. Birinci blok məktəblinin musiqi tərbiyəsinin səviyyəsinin, ikincisi – musiqi savadlılığının səviyyəsinin, üçüncüsü isə musiqi inkişafının səviyyəsinin müəyyən edilməsinə yönəldilib.

Məktəblilərin verilən suallara cavabları hər bir blok üzrə ayrılıqda qiymətləndirilmişdir. Bu, məxsusən hər bir səviyyənin ayrılıqda müəyyən olunması üçün edilmişdir:

I – musiqi tərbiyəsinin

II – musiqi savadlılığının

III – musiqi inkişafının

Məxsusi tərtib olunmuş 1 saylı Anketin köməyi ilə təsdiqedici eksperimentin aparılmasında iştirak edən bütün xor kollektivlərinin musiqi tərbiyəsi, təhsili və inkişaf səviyyəsinin spesifikası, keyfiyyəti və səviyyəsini müəyyən edən sorğu-söhbətlər aparılmışdır.

Sorğu xor kollektivinin hər bir iştirakçısı ilə fərdi şəkildə aparılmışdır. Dissertasiyanın müəllifi, anketin bütün bəndlərinə riayət etməklə, məktəbliləri sorğu-sual etmiş, bununla yanaşı, əlavə sualların köməyi ilə məktəblilərin musiqi tərbiyəsi, təhsili və inkişaf səviyyəsini mümkün qədər dəqiq və dərindən üzə çıxarmağa çalışmışdır. Elə hallar olmuşdur ki, sınaqda iştirak edən şagird cavabı dərhal tapmamış, lakin düzgün cavab vermişdir. Bəzi hallarda məktəblilər qısa və dərhal cavab vermiş, digər hallarda düşünmüş və müfəssəl və ətraflı cavab vermişlər. Bütün bu faktlar müəyyən edici tədqiqatın aparılması zamanı qiymətləndirmənin nəticələrində nəzərə alınmışdır.

Təcrübi-eksperimental işin müəyyən edici mərhələsinin nəticələri göstərmişdir ki, xor fəaliyyəti prosesində tərbiyə, təhsil və inkişaf vəzifələrinin di-

daktik qarşılıqlı əlaqəsinin ümumi səviyyəsi **aşağı və orta** kimi müəyyən olunur.

Təsdiqedici eksperiment zamanı bütün əldə olunan məlumatlar göstərir ki:

birincisi, uşaq xor kollektivlərinin məktəblilərinin musiqi tərbiyəsinin ümumi səviyyəsi bütövlükdə – aşağı, musiqi savadı və inkişafı – ortadır;

ikincisi, onların musiqi tərbiyəsi və təhsil səviyyəsi, məktəblilərin musiqi savadı, bacarığı və vərdişləri və onların musiqi təfəkkürünün səviyyəsi arasında uyğunsuzluq müşahidə olunur, bu da onların ümumi musiqi inkişafının qeyri-bərabərliyindən xəbər verir;

üçüncüsü, məktəblilərin yaş göstəricilərinin musiqi tərbiyəsi, təhsili və inkişafı səviyyəsinə müəyyən təsiri müşahidə olunur və bu asılılıq musiqi tərbiyəsi və inkişaf proseslərində xüsusilə hiss olunur.

**2.2. Təcrübi-eksperimental işin əsas mərhələsi: 2005-2008 illər** təsvir olunur. Bu mərhələdə dörd yoxlama bölmədən (yoxlamadan) ibarət formalaşdırıcı eksperiment aparılmışdır. Bütün dörd yoxlamanın yekun göstəriciləri 32 saylı Cədvəldə göstərilmişdir.

**Cədvəl № 32**

**Formalaşdırıcı eksperimentin bütün yoxlama bölmələrində məktəblilərin musiqi tərbiyəsi, təhsili və inkişafının didaktik qarşılıqlı əlaqəsinin ümumi yekun səviyyəsi: 2005-2008-ci illər**

| Xor kollektivinin adı | Qruplarda məktəblilərin ümumi sayı | Musiqi tərbiyəsi, təhsili və inkişafının didaktik qarşılıqlı əlaqəsinin ümumi yekun səviyyəsi | | | |
|---|---|---|---|---|---|
| | | 2005 il | 2006 il | 2007 il | 2008 il |
| Uşaq filarmoniyası 6 saylı Uşaq musiqi məktəbi | **Eksperimental -80** | **Aşağı** | **Orta** | **Yüksək** | **Yüksək** |
| 16 saylı və 35 saylı Uşaq musiqi məktəbləri | Yoxlama – 80 | Orta | Orta | Orta | Orta |

32 saylı cədvəldəki məlumatlar formalaşdırıcı eksperiment prosesində (2005-2008-ci illər) Uşaq filarmoniyası və 6 saylı Uşaq musiqi məktəbinin ümumi xor kollektivlərinin eksperimental qruplarında məktəblilərin musiqi tərbiyəsi, təhsili və inkişafının didaktik qarşılıqlı əlaqəsinin səviyyəsinin həqiqətən yüksəldiyini, 16 və 35 saylı UMM-də isə dəyişmədiyini göstərir. Bu fakt həm də müəllifin hazırkı tədqiqatın birinci fəslində irəli sürdüyü müddəaların aparılan formalaşdırıcı eksperiment prosesində özünün tam praktiki təsdiqini tapdığını göstərir. Bu faktın əyani şəkildə aydın təsvir edilməsi üçün onun qrafik təsvirinin aşağıdakı variantını təklif edirik.

**Formalaşdırıcı eksperiment prosesində göstəricilərin artım qrafiki (2005-2008-ci illər)**




Bütövlükdə, formalaşdırıcı eksperiment prosesində yoğun xətt Uşaq filarmoniyası və 6 saylı uşaq musiqi məktəbinin eksperimental qruplarında didaktik qarşılıqlı əlaqənin səviyyəsinin real və aktiv surətdə yüksəldiyini, nasik xətt isə 16 və 35 saylı Uşaq musiqi məktəblərinin yoxlama qruplarında dəyişməyən orta səviyyəni göstərir.

**2.3. Təcrübi-eksperimental işin III yekun mərhələsi: 2008-2012-ci illər** təqdim olunub. Bu mərhələdə H.Əliyev adına Müasir Təhsil Kompleksinin birgə xor kollektivində korrelyasiyaedici eksperiment aparılmışdır. İki

kontrol yoxlama aparılıb. Korrelyasiyaedici mərhələnin yekunları musiqi tərbiyəsi, təhsili və inkişafının didaktik qarşılıqlı əlaqəsi vəzifələri sisteminin praktiki aprobasiyasının onun effektivliyini təsdiq etdiyini göstərmişdir. Belə ki, əldə olunan nəticələr H.Əliyev adına Müasir Təhsil Kompleksinin birgə xor kollektivinin məktəblilərinin musiqi tərbiyəsi, təhsili və inkişaf səviyyəsinin həqiqətən yüksəldiyini, habelə onların tam uyğunluğunu təsdiq edir.

Təcrübi-eksperimental iş boyu əldə olunan nəticələrin aydın müqayisə edilməsi üçün onun hər üç mərhələsinin: I – ilkin təsdiqedici, II – əsas formalaşdırıcı və III – yekun korrelyasiya edici eksperimentlərin yekunlarını ümumiləşdirək.

Birinci ilkin mərhələdə müəyyən edici eksperiment prosesində (2002-2005-ci illər) 1 saylı Anketin köməyi ilə Uşaq filarmoniyası (60 şagird), 6 saylı Uşaq musiqi məktəbi (50 şagird), 16 saylı Uşaq musiqi məktəbi (50 şagird), 35 saylı Uşaq musiqi məktəblərinin (40 şagird) birgə uşaq xorlarından 200 məktəbli arasında sorğu keçirilmişdir. Məktəblilərin musiqi tərbiyəsi, təhsili və inkişafının ümumi səviyyəsi zəif və orta, didaktik qarşılıqlı əlaqənin səviyyəsi isə aşağı və orta kimi müəyyən edilmişdir.

İkinci əsas mərhələdə – formalaşdırıcı eksperiment prosesində (2005-2008) 160 məktəbli iştirak etmişdir, onlardan 80 nəfəri Uşaq filarmoniyası və 6 saylı Uşaq musiqi məktəbinin birgə xorlarının eksperimental qruplarından, 80 nəfəri isə 16 və 35 saylı Uşaq musiqi məktəblərinin birgə xorlarının yoxlama qruplarından olmuşdur. Eksperimental qruplarda musiqi tərbiyəsi, təhsili və inkişafının ümumi səviyyəsi artdı: zəif səviyyədən yaxşı səviyyəyədək, yoxlama qruplarda isə dəyişikliksiz – orta səviyyədə qalmışdır. Eksperimental qruplarda didaktik qarşılıqlı əlaqənin səviyyəsi aşağı səviyyədən yüksək səviyyəyədək artmış, yoxlama qruplarında isə yenə də dəyişikliksiz qalmışdır.

Korrelyasiya edici eksperiment prosesində üçüncü yekun mərhələdə (2008-2012-ci illər) H.Əliyev adına Müasir Təhsil Kompleksinin birgə xor kollektivindən cəmi 50 məktəbli iştirak etmişdir. Musiqi tərbiyəsi, təhsili və inkişafının ümumi səviyyəsi orta və zəif səviyyədən yaxşı səviyyəyədək yüksəlmiş, habelə didaktik qarşılıqlı əlaqənin dərəcəsi də aşağı göstəricilərdən yüksək göstəricilərədək artmışdır.

Beləliklə, bütün təcrübi-eksperimental işin aparılmasının nəticələri məktəblilərin xor tədrisinə müəllif yanaşmasının metodiki əhəmiyyətini, praktiki səmərəliliyini və xor fəaliyyəti prosesində bütün musiqi-tərbiyə,

təhsil və inkişaf vəzifələrinin didaktik qarşılıqlı əlaqəsinin tətbiqinin zəruriliyini tamamilə təsdiq edir.

**Nəticəyə** gələrək müasir elmi-pedaqoji tədqiqatlar nöqteyi-nəzərindən xor fəaliyyəti prosesində məktəblilərin musiqi tərbiyəsi, təhsili və inkişafının didaktik qarşılıqlı əlaqəsi problemi dissertasiyada xüsusi əhəmiyyət kəsb edir.

Xor oxumanın tədrisi prosesində məktəblilərin musiqi tərbiyəsi, təhsili və inkişafının məqsəd və vəzifələrinin qarşılıqlı əlaqəsi pedaqoq-xormeystere xor kollektivinin ümumi ifa mədəniyyətinin yüksək göstəricilərinə nail olmağa imkan verir. Bütün tərkib komponentlərin didaktik qarşılıqlı əlaqəsinin rolunu önə çəkərək, pedaqoq musiqi tərbiyəsi, təhsili və inkişafının vəzifələrini qarşılıqlı şəkildə əlaqələndirir və aktiv surətdə stimullaşdırır və bununla xor fəaliyyətinin tədrisi prosesinə – onun məzmunu, strukturu, keyfiyyət göstəriciləri və son nəticələrinə bilavasitə təsir göstərir. Bu müddəanı nəzərə alaraq, məktəblilərin xor tədrisində bütün mühüm musiqi-tərbiyə, təhsil və inkişaf vəzifələrinin qarşılıqlı əlaqəsi və harmonik uyğunluğu problemi əhəmiyyətli və aktual görünür.

Aparılan tədqiqat nəticəsində müəllifin uzunmüddətli musiqi-pedaqoji təcrübəsində əsas didaktik funksiyaların: tərbiyə, təhsil və inkişaf funksiyalarının harmonik qarşılıqlı əlaqəsinin əldə olunmasının yolları və metodları nəzəri cəhətdən ümumiləşdirilmiş və praktiki cəhətdən aprobasiya olunmuşdur.

Xor oxuma prosesində uşaqlara musiqinin tədrisinin təhsil funksiyasının məzmunu musiqi bilikləri, bacarıqları və vərdişlərinin verilməsidir. Bu funksiya məktəblilər tərəfindən musiqi savadının mənimsənilməsi problemini həll edir, belə ki, mahnı və xor repertuarını öyrənərkən, uşaqlar musiqi bilikləri, faktları ümumiləşdirmələri, musiqi sənəti haqqında qanunlar sistemini əldə edir. Onlar tədricən ümumi ifaçılıq bacarıqları və vərdişlərini əldə edir və bu, onlara vokal-xor fəaliyyətinin müxtəlif üsullarını öyrənməyə kömək edir. Beləliklə, təhsil funksiyasının məzmununu məktəblilərin uşaq xorunda oxuma prosesində mənimsədiyi musiqi bilikləri, bacarıq və vərdişləri təşkil edir.

Musiqi tədrisinin **təhsil** funksiyasının köməyi ilə tərbiyəvi rol da həyata keçirilir. Onun məzmunu uşaqların musiqi-estetik mədəniyyətinin inkişafı: musiqi-estetik ideralların, zövqlərin, təsəvvürlərin, fikirlərin, musiqi məlumatı axınına və musiqi sənəti hadisələrinə tənqidi yanaşmanın formalaşması, ətraf həyata əxlaqi-estetik münasibətin formalaşmasından ibarətdir. Bütövlükdə, xor oxuma prosesində **tərbiyəvi** funksiyanın rolu şəxsiyyətin hərtərəfli harmonik inkişafının əsaslarının formalaşmasından ibarətdir.

Musiqi biliklərini verərkən, öz şagirdlərini hərtərəfli tərbiyələndirərkən, pedaqoq-xormeyster eyni zamanda tədrisin **inkişaf** funksiyasını da aktiv surətdə həyata keçirir. Bu funksiya onların musiqi-intellektual qabiliyyətlərinin kəmiyyət və keyfiyyətcə artımı prosesidir. Xor oxuma prosesində məktəblilərin biliyinin, müsbət şəxsi keyfiyyətlərinin keyfiyyətcə toplanması təhsil və tərbiyənin yeni keyfiyyət səviyyəsinin yaranmasına gətirib çıxarır, keyfiyyət dəyişiklikləri isə kəmiyyətcə gələcək artım üçün yeni şərait yaradır.

Tədrisin bu funksiyası uşağın musiqi qabiliyyətlərinin inkişafını, onun musiqi dünya görüşünün genişlənməsini, hərtərəfli musiqi biliklərinin formalaşmasını, musiqi düşüncəsinin aktiv inkişafını, təfəkkürünü, musiqi-intellektual aktivliyini təmin edir. Musiqi təfəkkürü nə qədər mükəmməl və aktivdirsə, musiqi-intellektual ehtiyaclar da o qədər aktiv inkişaf edir, xor iştirakçısının hərtərəfli və harmonik inkişaf etmiş şəxsiyyətinin tərbiyə edilməsi üçün o qədər çox imkan yaranır. Xor kollektivində rəhbərin həyata keçirdiyi musiqi tədrisi əzəldən onun iştirakçılarının musiqi inkişafı və tərbiyəsinin aparıcı amilidir. Bu prosesin effektivliyi və keyfiyyətliliyi tərbiyə, təhsil və inkişafı bütün üç funksiyasının qarşılıqlı əlaqəsi və vəhdəti ilə müəyyən edilir. Öz arasında aktiv əlaqəyə girərək tədris inkişaf və tərbiyəni (musiqi qabiliyyətinin, istedadının, musiqi mədəniyyətinin yaranmasını) arxasınca aparır, musiqi inkişafı və musiqi tərbiyəsi isə musiqi tədrisinin imkanlarını genişləndirir.

Birgə xor oxuma prosesi uşaqlara təkcə melodiyanı dinləməyi, düzgün təkrar etməyi, onu yadda saxlamağı, bədii-obraz məzmununu estetik baxımdan yaşamağı öyrətmir, həm də onların vahid yaradıcı kollektivdə birləşdirir.

Beləliklə, aparılan tədqiqatın xor fəaliyyəti prosesində musiqi-tərbiyə, təhsil və inkişaf vəzifələrinin didaktik qarşılıqlı əlaqəsi probleminin tarixi və nəzəri aspektlərinin öyrənilməsi nəticəsində, uzunmüddətli praktiki aprobasiya, kontrol yoxlamalar, müqayisələr, ümumiləşdirmələr və əldə olunan nəticələrin təhlili zamanı təqdim olunan məzmunu və nəticələri onun elmi mötəbərliyini və geniş xor tədrisi praktikası üçün əhəmiyyətini təsdiq edir.

**Dissertasiya üzrə çap olunmuş ədəbiyyatların siyahısı.**

1. Хоровое пение как активная форма всестороннего развития детей. //Журнал «Pedaqoji Universitet xəbərləri», №3. Баку, 2013. с.393-395.

2. К вопросу о музыкальном воспитании в детском коллективе. // Журнал«Pedaqoji Universitet xəbərləri», №4. Баку, 2013. с.434-437.

3. Содержание образовательной функции в деятельности педагога-хормейстера. // Журнал«Təsviri və dekorativ-tətbiqi sənət məsələləri», №2(12). Баку, 2013. с.94-99.

4. Деятельность детского хорового коллектива во взаимодействии музыкального воспитания,образования и развитии. // Журнал «Elmi əsərlər» №2, Института проблем образования Азерб.Республики. Баку, 2013. с.134-137.

5. Xorla oxuma təlimi prosesində şəxsiyyətin inkişafı. // «Musiqi dünyası» jurnalı, №3/60. Bakı, 2014. s.64-66.

6. О роли музыкального развития детей в процессе хорового пения.// Международный научно-теоретический журнал «Dil və ədəbiyyat», №2. Баку, 2013. с.251-253.

7. Xormeysterin fəaliyyətində təhsil funksiyasının məzmunu. / «Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri» jurnalı. XIII Beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı, 2014. s.116-118.

8. Задачи воспитания, образования и развития школьников вработе с детским хоровым коллективом. / Журнал «Актуальные проблемы гуманитарных и естественных наук». Материалы III Международной научной конференции «Вопросы педагогики» № 07 (июль) часть III. М., 2015.с.76-78.

9. Актуальные проблемы и оптимизация учебно-воспитательногопроцесса в работе с детским хоровым коллективом. // Международный научный журнал «Мир науки, культуры, образования», №6(55). Горно-Алтайск, 2015. с.90-92.

10. Проблема дидактического взаимодействия музыкального воспитания, образования и развития в процессе хорового обучения. // Журнал «Высшая школа Казахстана» №1. Алма-Ата, 2016 г. с. 167-170

**Malakhat Alaga Mammadova**

# DIDACTIC BASIS OF MUTUAL RELATION OF UPBRINGING, EDUCATION AND DEVELOPMENT IN THE CHILDREN'S CHOIRS

## Summary

In the history, practice and theory of music upbringing choir is one of the most popular, widespread, active forms to attract children to music. So, it provides to express delicate feelings and mood in natural and better way. The sophisticated musician-educators, directors of choral collectives note that participation of children in collective choir is manifestation of highly emotional and intellectual activity that is vital important for personal and moral development of child.

Main content of the dissertation is reflected in the introduction, two chapters, result, bibliographic of literature review. In terms of modern scientific-pedagogical research, students' music upbringing and the problem of didactic mutual relation of development are of particular importance in the process of choral activities.

In the process of the teaching choir, students mutual relation of aim and duties of music upbringing, education and improvement gives opportunity educator to achieve high implications of the performance culture in chorus. Stressing the role of didactic mutual relation of all integral components, educator coordinates the duties of music upbringing, education and development mutually and stimulate actively, and in this way has influence on the teaching process of the choral activities its content, structure, quality indicators and the last results.

As a result of the research, in the author's long-termed music-pedagogical experience getting of the ways and methods of harmonic mutual relation of the functions called upbringing, education, development that are main didactic functions are theoretically generalized, and practically approbated.

Teaching of music has educative role by means of the function education. Its context consists of children's music-esthetics culture development that forming of music-esthetics ideals, tastes, imaginations, ideas, critical approach to the stream of music information and music events, besides, forming of moral-esthetics relation to life.

In general, the role of educative function in the process of choir consists of forming of basis of comprehensively harmonic development of personality. While teaching music, bringing up their students educator and choirmaster, at the same time, educator-choirmaster realize actively its development function. This function is the process of quantitative and qualitative improvement of their musical-intellectual capability. In the process of choir, accumulation of students  knowledge and positive personal qualities generates new quality level in education and upbringing, this provides an increase quantitatively

In choral collectives, teaching of music done by director plays important role in its participants  music development and upbringing. The effectiveness and quality of this process is determined with the mutual relations and intertwine of these three functions  upbringing, education, development. The process of performance together in choirs teach children not only listening to melody, repeating in right way, remembering it, artistic content in terms of esthetics, but also unites them in a creative collective. In the choir activity process of realized research, as a result of learning historical and theoretical aspects of music problems the didactically mutual relation of upbringing, education, development duties long-termed practical approbation, control checking, comparisons, generalization, content and consequences that getting during the analyses of the results confirm its scientific trustworthy and importance for the widespread practice of choir teaching.

Çapa imzalanıb: 19.02.2016.
Format: 60x84 1/16. Tiraj: 100.

**«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru